# Azarkeşlər üçün stadionda kütləvi futbol tədbirləri zamanı təyin edilmiş davranış qaydaları

## Ümumi qaydalar

1.1 Aşağıda qeyd olunanlar futbol matçları və məşqləri zamanı stadionlarda izləyicilər üçün təyin olunmuş qaydaları izah edir.
1.2 Stadiona daxil olmaqla azarkeşlər bu qaydaları qəbul edir və stadion ərazisində olduğu müddətdə bütün müddəalara əməl edilməsini öhdəliklərinə götürürlər.
1.3 Stadion rəhbərliyi azarkeşlərin stadion ərazisində qalan və itirilmiş əşyalarına görə məsuliyyət daşımır.

## Azarkeşlərin hüquqları

2.1 Stadion ərazisinə giriş aşağıda qeyd edilən sənədlərdən birinin təqdim edilməsi ilə həyata keçirilir:

- Oyun üçün nəzərdə tutulmuş təkistifadəlik bilet;
- İllik abonent biletləri;
- Xüsusi dəvətnamə;
- Peşəkar Futbol Liqası (PFL) tərəfindən mövsüm üçün nəzərdə tutlmuş akkreditasiya vərəqəsi;
- Nəqliyyat vasitələrinin stadionun ərazisinə, təyin edilmiş dayanacağa daxil olması üçün icazə, habelə zəruri hallarda həmin şəxsin şəxsiyyətini sübut edən sənəd (şəxsiyyət vəsiqəsi).

2.2 Azarkeşlərin stadiona girişi, ev sahibi klubun oyundan öncə təyin etdiyi vaxt ilə tənzimlənir.

2.3 Azarkeşlər biletlərlə stadionun tribunalarında təyin edilmiş yerlərini alırlar.

2.4 Şəxsi seçilmiş futbol klubunu (komandasını), ayrı-ayrı futbolçuları və məşqçiləri qanunla qadağan olmayan bütün üsul və vasitələrlə dəstəkləmək azarkeşlərin hüququdur.

2.5 Azarkeşlərin stadiona dəstək məqsədi ilə aşağıdakıları gətirmələrinə icazə verilir:

- Klubun rəsmi atributu, bayrağı və ya simvolu;
- Əvvəlcədən PFL tərəfindən təsdiq olunmuş, alova davamlı materialdan hazırlanmış və tutacaqsız (dəmir, plastik, taxta və s.) bannerlər.

2.6 Hər bir azarkeşin oyun zamanı yaşadığı problem və ya azarkeşlik etdiyi klub haqqında təklif və iradlarını bildirməsi üçün, klubun təyin etdiyi Azarkeşlərlə Əlaqələndirici Şəxs vəzifəsində çalışan nümayəndəyə birbaşa olaraq müraciət etmək hüququ vardır.

**Azarkeşlərdən tələb olunanlar**

3.1 İctimai asayiş və davranış qaydalarına riyat etmək.

3.2 Stadionun təhlükəsizlik və giriş nöqtələrində olan əməkdaşlara 2.1 bənddə  qeyd edilənlər təqdim edilməlidir.

3.3 Təhlükəsizliyin təmin olunması məqsədi ilə stadionun mühafizəsi (və ya hüquq-mühafizə orqanlarının əməkdaşları) tərəfindən aparılan şəxsi yoxlanış aparmaq hüququ ilə razılaşmaq və qanuni göstərişlərinə tabe olmaq.

3.4 Vətəndaşların şəxsi baxışını və onların üzərindəki əşyaların yoxlanılmasını ictimai asayişi təmin edən şəxslər xüsusi texniki vasitələrlə həyata keçirirlər, şəxsi baxış yalnız həmin şəxslə eyni cinsdən olan şəxslər tərəfindən həyata keçirilməlidir.

3.5 Biletlərinizə, abonement vərəqələrinizə və ya ona bərabər tutulan sənədlərə uyğun olaraq stadionun tribunalarında yerini tutmaq.

3.6 Öz və digər klub (və ya ölkənin) himnlərinə, bayraqlarına və rəmzlərinə hörmət göstərmək.

3.7 Stadionun və ya klubların əmlaklarından onlara zərər vermədən, ehtiyatla istifadə etmək.

3.8 Digər azarkeşlərə, stadion işçilərinə, polis və mühafizə xidmətini aparan şəxslərə hörmət göstərmək.

3.9 Stadion ərazisində təhlükəsizlik qaydalarına riayət etməyən və ya hər hansısa şübhə doğuran şəxslərlə bağlı dərhal hüquq-mühafizə orqanlarının əməkdaşlarına və stadiondakı məsul şəxslərə məlumat vermək.

3.10 Təhlükəsizliyə nəzarət edən əməkdaşların qanuni tapşırıq və tələblərinə riayət etmək.

3.11 Fövqəladə hallar zamanı stadionun təxliyə planına uyğun olaraq təhlükəsizliyə cavabdeh olan şəxslərin tapşırıqlarına riayət etmək.

3.12. Ehtiyac yaranacağı təqdirdə, əvvəlcədən stadionda elan olunmaqla qonaq komandanın azarkeşləri hüquq-mühafizə orqanlarının göstərişi əsasında stadion ərazisini matç başa çatdıqdan 30 dəqiqə sonra tərk etməlidirlər.

**Azarkeşlərə stadion ərazisində tətbiq olunan qadağalar**

4.1  Sərxoşluq vəziyyətində olan, habelə narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının, toksik təsir göstərən maddələrin təsiri altında olan şəxslərin stadiona daxil olması qadağandır.

4.2 Narkotik və ya psixotrop maddələrin, onların prekursorlarının əraziyə keçirilməsi qadağan olunur.

4.3 Kütləvi idman tədbirlərinin keçirilməsi qaydalarının pozulmasına yönəlmiş hərəkətlərə yol verən, ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsinə maneçilik törədən, digər şəxsləri bu cür hərəkətlərə təhrik edən şəxslər, qrup şəklində ifrat azarkeşlik edən şəxslərin stadiona daxil olması qadağandır.

4.4 Kütləvi idman tədbirlərinin keçirilməsi zamanı xidməti vəzifələrini yerinə yetirən şəxslərə, tədbir iştirakçılarına və tamaşaçılara hər hansı formada mane olmaq, ictimai asayişin və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki fəaliyyətin həyata keçirilməsinə imkan verməmək qadağandır.

4.5 Stadion ərazisində tütün məhsullarından və ya elektron siqaretlərdən istifadə etmək təyin edilmiş yerlər istisna olmaqla qadağan olunur.

4.6 Meydançada oyunçulara, hakimlərə və ya meydançaya yad cismlər, əşyalar atmaq qadağandır.

4.7 Növündən və təyinatından asılı olmayaraq, pirotexniki vasitələrdən istifadə etməklə fişəng və ya od yandırmaq, yanma hesabına işıq saçan vasitələrdən istifadə qadağandır.

4.8 Stadion ərazisində kobud, təhqiredici ifadələr səsləndirmək, mahnı və ya şüarlar oxumaq qadağandır.

4.9 Oyunçulara, hakimlərə, oyun nümayəndələrinə və digər azarkeşlərə qarşı dini, irqi həmçinin siyasi ifadələr işlətmək, onlara təzyiq etmək qadağandır.

4.10 Stadion ərazisində akkreditasiya və ya biletdə icazəsi olmayan otaqlara, xidməti ərazilərə daxil olmaq qadağandır.

4.11 Futbol matçı zamanı oturacaqların üstünə çıxmaq, pilləkənlərdə və ya mühafizə xidmətinin əməkdaşları üçün təyin edilmiş yerlərdə dayanmaq qadağandır.

4.12 Heyvanlarla stadion ərazisinə daxil olmaq qadağandır.

4.13 Üzü maska ilə gizlətmək qadağandır. Üzünü maska ilə gizlədən şəxslər stadion ərazisinə buraxılmır.

4.14 Yaşı 12-dən aşağı olan uşaqların stadiona valideynsiz və ya qəyyumsuz girişi qadağandır.

4.15 Stadion ərazisinə aşağıdakı əşyaları gətirmək qadağan edilir:

- Bütün növ alkoqollu içkilər;
- Narkotik vasitələr, onların prekursorları, psixotrop maddələr, onların analoqları, toksik təsir göstərən maddələr;
- Soyuq, odlu, pnevmatik və digər tipli silahlar, silahların ayrı-ayrı hissələri, partlayıcı maddələr və döyüş sursatları, habelə partlayıcı maddələrə və döyüş sursatlarına oxşar vasitələr;
- Pirotexniki vasitələr və yanma hesabına işıq saçan məhsullar;

- İnsanların həyatına və sağlamlığına təhlükə törədən, fiziki və hüquqi şəxslərə maddi ziyan vuran, kütləvi idman tədbirlərinin keçirilməsinə maneələr yarada bilən xüsusi hazırlanmış və ya uyğunlaşdırılmış vasitələr;
- Müxtəlif qablaşdırılmada olan içkilər;
- Matç zamanı meydançaya atılması mümkün olan əşyalar *(Məsələn: çətir, dəbilqə, qapaqlı butulkalar, şüşə və s.)*
- Tüstü bombaları, gözyaşardıcı qaz silindirləri və bu kimi əşyalar;
- Yanan, partlayıcı, zəhərli, aşındırıcı və iyli maddələr;
- Radioaktiv maddələr;
- Lazer cihazları, fit səsi verən vasitələr;
- PFL tərəfindən təsdiq edilməmiş bannerlər;
- Üzərində dini, irqi və ya milli təhqirlər əks edilmiş geyimlər;
- Məzmunu ictimai qaydanı, vətəndaşların hüquq və qanuni maraqlarını pozmağa yönəlmiş, eləcə də zorakılığın, irqi, milli və dini ayrı-seçkiliyin, müharibənin təbliği ilə bağlı bayraqlar, emblemlər, sinvollar, plakatlar, transparantlar və başqa vasitələr;
- Akkreditasiya ilə təmin olunmamış şəxslər üçün peşəkar foto və video cihazları;
- Səsucaldıcı cihazlar və s.

**Qaydaların pozulmasına görə məsuliyyət:**

5.1 Stadion qaydalarına əməl etmədiyi halda stadion rəhbərliyi habelə hüquq-mühafizə orqanlarının əməkdaşları bilet dəyərini geri qaytarılmadan azarkeşi stadion ərazisindən kənarlaşdırmaq hüququna malikdir.

5.2 Qaydaları pozan azarkeşlər Azərbaycan Respublikasının qanunvericiliyinə və AFFA, FİFA, UEFA-nın qaydalarına müvafiq olaraq məsuliyyətə cəlb olunacaqlar.